# Dünya diplomatiyasında ən müsbət nümunələrdən biri

## Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindən vaxtından əvvəl çıxarılması tamamilə məntiqlidir

**2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlılarının ölkəmizdən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Qərara əsasən, rusiyalı hərbçilərin Azərbaycan ərazilərindən çıxarılması prosesinə başlanılıb. Bu istiqamətdə hər iki ölkənin müdafiə nazirlikləri tərəfindən müvafiq tədbirlər həyata keçirilir.**

Qeyd edək ki, uzun müddətdir Rusiya sülhməramlı kontingentinin işğaldan azad olunmuş ərazilərdə fəaliyyəti müzakirə predmetinə çevrilmişdi. Xüsusən 2023-cü ilin sentyabrında Azərbaycanın keçirdiyi uğurlu antiterror tədbirlərindən sonra onların bütün ərazilərində suverenliyini bərpa etmiş ölkədə qalmasına ehtiyac olmadığı vurğulanırdı. 2020-ci il noyabr Bəyanatına əsasən sülhməramlıların 5 il müddətinə müvəqqəti yerləşdirilməsi qərarı bu prosesin 2025-ci ilə qədər uzanacağı təsəvvürünü formalaşdırmışdı. Amma iki ölkənin ali rəhbərliyi tərəfindən rusiyalı hərbçilərin Azərbaycan ərazilərindən vaxtından əvvəl çıxarılması ilə bağlı qərar qəbul olunmuşdur.

Mövzu ilə əlaqədar Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması iki ölkə arasında qəbul edilmiş razılığa əsasən həyata keçirilib.



Deputat vurğulayıb ki, bu, tamamilə məntiqlidir: "Rusiya silahlı qüvvələri 2020-ci ildən Azərbaycan ərazisində fəaliyyət göstərirdi. Bu gün onların ölkəmizin ərazisində qalması üçün hər hansı bir səbəb yoxdur. Beləliklə, üçüncü ölkənin müdaxiləsi olmadan iki ölkə bu məsələni öz aralarında həll etmək qərarındadırlar".

A.Mirzəzadə qeyd edib ki, bu, eyni zamanda Azərbaycanla Rusiya arasında qarşılıqlı etimadın yüksək olduğunu, bir-birinin ərazi bütövlüyünə, milli maraqlarına hörmətlə yanaşdığını, istənilən məsələnin öz aralarında danışıqlar, diplomatik yolla həllinin mümkünlüyünü göstərdi. Bu razılaşma dünya diplomatiyasında ən müsbət nümunələrdən biri kimi təqdir edilə bilər. Digər ölkələr də özlərinin daxili siyasətlərinə aid məsələləri Azərbaycan kimi həll etsələr, daha yaxşı olar. "Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması iki ölkə münasibətlərinin daha yüksək səviyyəyə çatdığını, bundan sonra da əlaqələrin mehriban qonşuluq münasibətləri şəraitində olacağını göstərir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 19 aprel, № 78.- S.3.